**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş İdrisov Şıxzada İbrahim oğlunun 05 yanvar 2010-cu il tarixli 402 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 51 saylı Qusar seçki dairəsinin 41 saylı seçki məntəqəsində müşahidəçi olmuş İdrisov Şıxzada İbrahim oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, onun səsvermənin gedişində, səslərin hesablanmasında və nəticələrin rəsmiləşdirilməsində məntəqə seçki komissiyasının sədrinin və üzvlərinin, eləcə də digər şəxslərin yol verdikləri qanun pozuntuları barədə şikayətinə adı çəkilən dairə seçki komissiyası tərəfindən baxılmamasını bildirərək, dairə seçki komissiyasının qanunsuz hərəkətsizliyi barədə müvafiq qərar qəbul etməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciəti qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırmışdır.

Araşdırma nəticəsində əldə olunan sübutlardan görünür ki, müşahidəçi İdrisov Şıxzada İbrahim oğlunun qeyd edilən qanun pozuntuları barədə dairə seçki komissiyasına daxil olmuş şikayəti müəyyən edilmiş qaydada qeydə alınmış, dairə seçki komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və dairə seçki komissiyasının iclasında baxılaraq 29 dekabr 2009-cu il tarixli 64/106 saylı müvafiq qərar qəbul edilmiş və həmin qərarın surətinin müraciət edənə çatdırılması qanunamüvafiq tədbir görülmüşdür.

Beləliklə də, 51 saylı Qusar seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır, ona görə də əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın” 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş İdrisov Şıxzada İbrahim oğlunun 05 yanvar 2010-cu il tarixli 402 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |